# Ankarada görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının irsi müzakirə olunub

**Ankarada Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibliyinin binasında görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının anadan olmasının 125-ci ildönümünə həsr edilmiş tədbir keçirilib.**






Tədbir çərçivəsində yazıçının seçilmiş əsərlərinin təqdimatı olub. Tədbir iştirakçıları "Azərbaycan Hava Yolları"nın təyyarəsinin Aktau yaxınlığında qəzaya uğraması nəticəsində həlak olanların xatirəsini birdəqiqəlik sükutla ehtiramla yad ediblər.

Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı qeyd edib ki, Cəfər Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatının rəmzi simalarından biridir. Onun sözlərinə görə, Azərbaycan teatr sənətinin və kinosunun inkişafında təkan dramaturqun adı ilə bağlıdır.

"TÜRKSOY Cəfər Cabbarlı irsinin təbliğinə töhfə verməyə çalışır. Dramaturqun türkcə əsərlər toplusu Azərbaycanın görkəmli ziyalılarının yaradıcılığı ilə bağlı Türkiyənin geniş ictimaiyyətini məlumatlandırmaq məqsədi daşıyır", - deyə E.Qafarlı qeyd edib.

Ölkəmizin Ankaradakı səfirliyi nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Samir Abbasov görkəmli dramaturqun seçilmiş əsərlərindən ibarət toplunun hazırlanmasında TÜRKSOY-un rəhbərliyinə və layihənin bütün iştirakçılarına minnətdarlığını bildirib.

"Cəfər Cabbarlının yaradıcılığı Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə kimi görkəmli yazıçı, şair və maarifçilərin irsi ilə bir sırada yer alıb. Azərbaycan klassik dramaturgiyasının inciləri sayılan əsərlər onun qələmindən çıxıb" deyən S.Abbasov Cəfər Cabbarlının əsərlərini əbədi irs, Azərbaycan yazıçılarının yeni nəsilləri üçün bələdçi adlandırıb.

Daha sonra Cəfər Cabbarlının irsi mövzusunda sənədli film nümayiş etdirilib.

Professor İsrafil İsrafilov isə cəmi 35 il ömür sürmüş, bütün türk dünyası ədəbiyyatında parlaq, təkrarsız iz buraxmağı bacarmış Cəfər Cabbarlının bənzərsiz şəxsiyyətindən söz açıb. "Söhbət hərtərəfli şəxsiyyətdən - təkcə yazıçı və dramaturq deyil, həm də istedadlı şairdən gedir. Onun poetik yaradıcılığını dərk etmək üçün "Ana" şeirinin gözəlliyini, eləcə də Azərbaycanın üçrəngli bayrağına həsr olunmuş sətirləri təhlil etmək kifayətdir. O, yaradıcılığı ilə şübhəsiz ki, Azərbaycan dilini zənginləşdirib", - deyə professor qeyd edib.

Cəfər Cabbarlının dramatik irsinin Azərbaycanda bütöv bir aktyor pleyadasını formalaşdırdığı da vurğulanıb.

Azərbaycan.- 2024.- 29 dekabr (№ 289).- S.11.